# Tarixin Unutduğu Qəhrəman: Nuru Paşa

*"İşğal altındakı torpaqlarımız ana vətənə ateşli protestlərlə deyil, qılıncın endirdiyi zəfər zərbələriylə qatıla bilər"- bu tarixi fikirlər məhz Nuru paşa kimliyi barədə ən dəyərli sözlərdir. Nuru Paşa Killigil Qafqaz İslam Ordusunun komandanı, Azərbaycanın rus zülmündən- soyqırımdan xilas edilməsində əsas rol oynamış bir xilaskardır. Nuru Paşa 1889-cu il 5 mayda İstanbulda hərbçi Əhməd Tofiqin ailəsində doğulub.Osmanlı imperiyasının hərbi naziri Ənvər Paşa Nuru Paşanın qardaşıdır.Əhməd Tofiqin hər iki oğlu milliyətçi, vətənpərvər, turançı idi. Ənvər və Nuru paşanın soyu Kırım türklərinə gedir.Sonralar bu soy Dunay çayı hövzəsinə və son olaraq İstanbula köçmüşdür.*

Adolf Hitler "Mayn Kampf" (Mənim Savaşım ) kitabında Birinci Dünya müharibəsində alman ordusunun məğlubiyyətinin səbəbkarı kimi alman generallarını görürdü. Kitabında yazırdı ki, almanların Ənvər paşa kimi generalı yox idi. Ənvər paşa kimi generalları olsaydı, alman ordusu məğlub olmazdı.



Nuru paşa 1906-cı ildə Quru qoşunları hərbi məktəbinə daxil olub və 1909- cu ildə həmin məktəbi leytenant rütbəsi ilə bitirərək 3-cü Ordu komandanlığında zabit kimi xidmətə başlayıb,1910-cu ilin yanvarından sultana məxsus piyada bölüyünə keçirilib.1913-cü ildə kapitan,1916-cı ildə mayor,1918-ci ildə polkovnik-leytenant rütbələri alıb.1914-ci ilin iyulunda Osmanlı dövlətinin Avstriya-Macarıstan səfirliyinin attaşeliyinə,həmin ilin avqustundan isə hərbi attaşeyə yavər təyin edilib.Birinci Dünya müharibəsi illərində Nuru Paşa Şimali Afrika cəbhəsinə göndərildi.Nuru Paşanı qardaşı Ənvər paşa Afrikaya göndərmişdi.1911-1912-ci illərdə baş vermiş İtaliya –Osmanlı müharibəsində Nuru paşa Liviyadakı hərbi əməliyyatlarda iştirak etmişdi.Ənvər paşa və əmisi Xəlil paşa da bu müharibənin iştirakçısı idi. Nuru paşa Liviyada böyük nüfuza malik idi.Liviyanın ərazisinin hər qarışını gözəl tanıyırdı.Nuru paşa bir yunan qaçaq gəmisiylə 1915-ci ilin fevralında Liviyanın Binqazinin Tobruk-Sollum arasındakı Defe sahilinə çıxır.Nuru paşa ilə birlikdə türk zabitləri və təlimatçıları da sahilə çıxır.11 noyabr 1914-cü ildə Osmanlı sultanının xəlifə kimi müqəddəs cihat elan etməsində ilk iştirak edən Liviyadakı(Trablusqərbdəki)müsəlmanlar olmuşdur.Fizan əyalətində üsyana qalxan əhali italyan qarnizonlarını ələ keçirmişdilər.Fizanın ərazisində yerləşən italyan qoşunları komandanı albay (polkovnik) Miyani qalan qüvvələriylə Liviyada Mısrata çəkilmək məcburiyyətində qalmışdı. Liviyaya, üsyançılara köməyə əsasən zabit və təlimatçılardan təşkil olunmuş kiçik, azsaylı ordu göndərildi.Ənvər paşa Süveyş kanalı istiqamətində hazırlanan hücuma yardımçı olaraq Liviyada üsyan qaldıran Osmanlı tərəfdarlarını və onlara köməyə gələn türk əsgərlərini Liviyadan Misirə hücuma göndərdi.Liviyadan təşkil olunan hücuma Nuru paşa fəxri ferik rütbəsiylə komandan təyin olundu.Nuru paşa ilə birlikdə Şeyx Əhməd və Şeyx İdris Liviyadan Misirə hücum etməli idi.Afrika Gruplar Komandanlığına Nuru paşa komandan təyin olundu.Şeyx Əhməd Misirə hücum etdi.Nuru paşanın yetki hüdudu Trablusqərbdən başqa Misirin qərbi,Sudan,Fizan,Tunus və Əlcəzairin sərhəd bölgələrini əhatə edirdi.Nuru paşa Şeyx Əhməd ilə birlikdə Misirin qərbində 1915-ci ilin fevralından 1917-ci ilin martına qədər ingilislərlə döyüşdülər. İngilislər ordularının yarısını Misirin qərbində və Nil çayı boyunca saxlamağa məcbur oldu.

İtaliya 26 aprel 1915-ci ildə Birinci Dünya müharibəsinə qoşuldu.20 avqust 1915-ci ildə Osmanlı dövlətinə müharibə elan etdi.Osmanlı parlamenti- Məclisi toplanaraq İtaliya ilə bağlanan Ouchy sülh müqaviləsini ləğv etdi.Liviya (Trablusqərb)təkrar Osmanlı torpağı elan edildi.Nuru paşa kiçik ordu ilə ingilislərlə savaşdığı üçün Qərbi Misirdən geri çəkilmək məcburiyyətində qaldı.Nuru paşanın qərargahı Liviyada Mısratda yerləşirdi.Aprel 1917-ci ildən yanvar 1918-ci ilə qədər İtalyanlarla uğurla mübarizə etdi.Trablusqərb(Liviya) və Misirin qərb hüdudlarında müharibələrdən başqa Nuru paşanın əmrindəki qüvvələr bölgənin aşirət qüvvələri ilə birlikdə Sudanda ingilislərə,Tunis,Əlcəzair və Niger sərhədlərində fransızlarla qarşı mübarizə apardı.Nuru paşa və Cəfər paşa Halife ibn Asker adlı mücahit komandanı ilə beş min yığma əsgər və 30 türk zabiti ilə Tunisin Dehibat şəhərinə hücum etdi.Nigerə Tevarekli Kösen adlı komandanın başçılığı ilə ordu birliyi göndərildi.Bu ordu Nigerin Air və Zinder bölgələrini fransızlardan təmizlədi.Təkrar Çad ərazisinə döndü.Nuru paşa ordusunun qərargah rəisi Hafiz Gürman adlı türk polkovniki idi.Nuru paşa Afrika Gruplar komandanlığında çıxan anlaşılmazlıq səbəbiylə 1918-ci ilin yanarında İstanbula döndü.

(davamı səhifə 11-də)

